# Naxçıvan Dövlət Texniki Kollecinin yeni tədris kompleksi istifadəyə verilib

Oktyabrın 10-da Naxçıvan Dövlət Texniki Kollecinin yeni tədris kompleksinin açılışı olub. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iştirak edib. Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni tədris kompleksinin istifadəyə verilməsi münasibətilə kollecin müəllim və tələbələrini təbrik edən Ali Məclisin Sədri deyib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu təhsil strategiyası bu gün ölkəmizdə məzmunca yeni mərhələyə yüksəlib. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən ardıcıl islahatlar nəticəsində təhsil müəssisələrində güclü maddi-texniki baza formalaşdırılmış, gənclərin təhsil alması üçün geniş imkanlar yaradılmışdır. Vasif Talıbov diqqətə çatdırıb ki, muxtar respublikada da gənclərin hərtərəfli təhsilə yiyələnmələrinə və əsl mütəxəssis kimi yetişmələrinə xüsusi diqqət yetirilir. Bu işdə orta ixtisas məktəblərinin imkanlarından geniş istifadə olunur. Son illər təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlər orta ixtisas məktəblərini də əhatə etmiş, bu təhsil ocaqlarının maddi-texniki bazası gücləndirilmişdir. Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahədə aparılan işlərin davamıdır.





Ali Məclisin Sədri çıxışında texnologiyanın əhəmiyyətindən, texniki sahələr üzrə ixtisaslı kadrlar hazırlanmasının zəruriliyindən söz açıb, bu işdə kollecin rolunu vurğulayıb. Tələbələrə yaradılan şəraitdən düzgün istifadə etməyi, hərtərəfli təhsil almağı, biliklərə dərindən yiyələnməyi, mütəxəssis kimi yetişməyi tövsiyə edən Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin "Cəmiyyətdə layiqli yer tutmaq üçün, ölkəyə, Vətənə, millətə faydalı olmaq üçün bütün imkanlardan istifadə edib yüksək təhsil almaq lazımdır", - fikrini diqqətə çatdıraraq bu vəzifənin yerinə yetirilməsində kollecin kollektivinə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək bildirib ki, 2016-cı ilin ötən dövründə muxtar respublikada 8 tam orta məktəb binası və bir peşə məktəbi istifadəyə verilib. Hazırda Naxçıvan Şəhər Peşə Liseyi, eyni zamanda 10 ümumtəhsil məktəbi üçün binaların tikintisi və əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Naxçıvan Dövlət Texniki Kolleci üçün binanın istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.

Məmməd Qəribov yaradılan şəraitə görə muxtar respublikanın təhsil işçiləri adından ölkə və muxtar respublika rəhbərliyinə minnətdarlıq edib.

Naxçıvan Dövlət Texniki Kollecinin müəllimi Aytən İmanova muxtar respublikada digər sahələr kimi, təhsilin də sürətlə inkişaf etdiyini, yeni təhsil ocaqları tikilib istifadəyə verildiyini, təhsilin bütün pillələri arasında əlaqələrin gücləndirildiyini, yüksək intellektli kadrların hazırlanması üçün güclü stimul yaradıldığını qeyd edib.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsib. Məlumat verilib ki, kollecin binası 5 mərtəbədən ibarətdir. Binada 14-ü elektron lövhəli olmaqla 26 auditoriya, kimya-biologiya, fizika və baytarlıq laboratoriyaları, tədris olunan ixtisaslara uyğun 10 fənn kabineti, Heydər Əliyev lektoriyası, 3 kompüter otağı, baytarlıq fənn komissiya otağı, müəllimlər otağı, kitabxana, bufet və 120 yerlik iclas zalı vardır.

Təhsil ocağının informasiya texnologiyaları ilə təminatı diqqətdə saxlanılıb, 66 kompüter quraşdırılıb və internetə qoşulub. Kitabxanada 2850 dərslik və 1175 bədii ədəbiyyat olmaqla, 4025 kitab müəllim və tələbələrin istifadəsinə verilib.

Hazırda kollecdə 455 tələbənin təhsili ilə 36 müəllim məşğul olur. 2016-2017-ci tədris ilində kollecə 123 tələbə qəbul olunub.

Kollecin müəllimi Səadət Qocayeva çıxış edərək təhsilə göstərdikləri diqqət və qayğıya görə ölkə Prezidentinə və muxtar respublikanın Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib. Gənclərin yaxşı təhsil alması və mütəxəssis kimi yetişməsi üçün səylə çalışacaqlarına söz verib.

**Mətbuat xidməti**